# Tullantılara "ikinci həyat"




**Dünyada əhalinin sayı sürətlə artmaqdadır. Bu da resursların azalmasına, tullantıların artmasına səbəb olur. Hazırda planetdə 2 milyard tondan artıq bərk məişət tullantıları formalaşıb. Tullantıların 35 faizi dünya əhalisinin, təxminən 16 faizinin yaşadığı inkişaf etmiş və gəlirləri yüksək olan ölkələrin payına düşür. 2050-ci ilə qədər bu rəqəmin 40-45 faizə qədər yüksələcəyi gözlənilir.**










## 2030-cu ilə qədər elektron tullantıların miqdarı 82 milyon tona çatacaq

Yeni texnoloji modellərin sürətli inkişafı və onların daim yenilənməsi nəticəsində hər il milyardlarla ton elektron tullantıları yaranır. Bu tullantıların ümumi miqdarının 2030-cu ilə qədər 30 faiz artaraq 82 milyon tona çatacağı gözlənilir. Tədqiqatçılar bu problemin öhdəsindən gəlməyin əsas yollarından biri kimi təkrar emalı tövsiyə edirlər.

Bu gün insanların sosial və iqtisadi fəaliyyəti nəticəsində istifadə müddətini doldurmuş və təbiətə zərər verən tullantıların idarə edilməsi, toplanması, təkrar emalı və utilizasiyası qlobal xarakter alıb. Tullantıların təkrar emalı və yenidən istehlak prosesinə daxil edilməsinin əsas məqsədi iqlim dəyişikliyinin, təbii ehtiyatların azalmasının və ətraf mühitin çirklənməsinin qarşısını almaqdır. Ekoloqlar da bildirirlər ki, təkrar emalın sıfırdan istehsaldan əsas fərqi sənaye proseslərinin sayının xeyli az olmasıdır. Bu da öz növbəsində böyük miqdarda enerji qənaətinə şərait yaradır.

## COP29-da Həmrəylik Mərkəzi

Ekoloji problemlər, ətraf mühitin qorunması məsələsi dövlətimizin əsas prioritet məsələlərindəndir. Hazırda dünyanın qlobal tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişmələri Üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına (COP) Azərbaycanın evsahibliyi etməsi də bunun əyani sübutudur.

Bir müddət öncə COP29 Könüllüləri "Təkrar emal fəalları" adlı təmizlik aksiyası da keçirmişdilər. Ekoloji aksiya çərçivəsində könüllülər Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yerləşən parkda istirahət edən sakinlərlə ictimai təmizliyə riayət olunması və şəhər parklarının ekoloji durumunun sağlamlaşdırılmasının əhəmiyyəti barədə maarifləndirici söhbət aparmışdılar. Toplanan 230 kilodan çox həcmdə müxtəlif növ bərk məişət tullantıları könüllülər tərəfindən Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavoduna növbəti təkrar emal üçün təhvil verilmişdi. Bu təşəbbüs COP29 könüllüləri tərəfindən iqlim dəyişmələri problemləri və onların həlli yolları, həmçinin bu istiqamətdə kollektiv və birgə fəaliyyətin rolu haqqında ictimaiyyətin məlumatlılığının artırılmasına yönəlmiş davamlı fəaliyyətin bir hissəsi idi.

Hazırda COP29 tədbirinin keçirildiyi ərazidə ümumilikdə 155 pavilyon fəaliyyət göstərir. Pavilyonlarda innovasiyalar, iqlim dəyişmələri ilə mübarizə üzrə potensial həll variantlarının təqdim edilməsinə dair müzakirələr, panellər keçirilir və sərgilər təşkil olunur. Bu pavilyonlardan biri də COP29-un "yaşıl zona"sında yerləşən Heydər Əliyev Fondu və Sıfır Atık Fondunun birgə yaratdıqları COP29-da Həmrəylik Mərkəzidir. Azərbaycan və Türkiyənin iki fondu qlobal tədbir zamanı davamlılıq və sosial inkişaf naminə səylərini birləşdirib.

COP29-dakı birgə layihə hər iki fondun ətraf mühit və sosial məsuliyyət sahələrində fəaliyyətlərini önə çəkir. Heydər Əliyev Fondunun təhsil, səhiyyə, sosial və mədəniyyət layihələri ilə yanaşı, ətraf mühitin qorunması üzrə təşəbbüsləri də öz səmərəsi ilə cəmiyyətdə rəğbətlə qarşılanır. Pavilyon çərçivəsində təhsil, səhiyyə və sosial sahələrdəki layihələrlə bağlı interaktiv zona yaradılıb. Sıfır Atık Fondu da resurs səmərəliliyi, tullantıların idarə olunması və təkrar emal sahəsindəki layihələrini, ətraf mühitin qorunması üzrə maarifləndirmə istiqamətindəki proqramlarını və innovativ həllərini təqdim edir.

## Qida tullantıları yenidən emal olunacaq

COP29 konfransının formatına uyğun olaraq burada istifadə olunan qida tullantıları yenidən emal olunacaq. Bunun üçün ərazidə 1200-dən çox əməkdaş çalışır. Bunu COP29 üzrə Ketrinq, Təmizlik və Tullantıların Təmizlənməsi Departamentinin şöbə müdiri Anar Zeynalov jurnalistlərə açıqlamasında bildirib. O deyib ki, buraya ümumi, qablaşdırma, şüşə və digər tullantılar çeşidlənərək, emal olunaraq aidiyyəti qurumlara təhvil veriləcək. Xüsusi avadanlıqlar vasitəsilə qida tullantılardan alınan gübrələri Bakı Abadlıq Xidmətinə göndəriləcək.

Dünyanın ən irimiqyaslı tədbirlərindən biri olan COP29 tullantıların təkrar emalı, çirklənmiş ərazilərin bərpası, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə sahəsinə öz töhfəsini verəcək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*